# QEYRİ NEFT-QAZ SEKTORU

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ PERSPEKTİVLƏR

- ✓ 2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya 2022-ci illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. ÜDM-in 63,1%-i qeyri neft-qaz sektorunun payına düşmüşdür.
- ✓ 2023-cü ildə əvvəlki ilə nisbətən qeyri neft-qaz sektorunda ÜDM 3,7% artaraq 77,7 milyard manat olmuşdur.
- ✓ Qeyri neft-qaz sektorunda yaradılan ÜDM-nin 8,8%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 8,1%-i qeyri-neft-qaz sənayesi, 9,8%-i tikinti, 15,9%-i ticarət və nəqliyyat vasitələrinin təmiri, 9,8%-i nəqliyyat və anbar təsərrüfatı, 3,5%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,8%-i informasiya və rabitə sahələrinin, 29,4%-i digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər isə 12,0% təşkil etmişdir.
- ✓ Ötən il tikinti sahəsində 13,3%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 21,8%, informasiya və rabitə sahəsində 16,3%, qeyri neft-qaz sənayesində 7,9%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 3,0%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 3,5% artım əldə olunmuş, nəqliyyat və anbar təsərrüfatında isə 9,9% azalma qeydə alınmışdır.
- ✓ Ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş sərmayənin 69,1%-i və ya 14031,1 milyon manatı qeyri neft-qaz sektorunun inkişafına sərf edilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 9,2%-i və ya 1866,9 milyon manatı qeyri neft-qaz sənayesinə yönəldilmişdir.
- ✓ Qeyri neft-qaz sektorunun gələcək inkişaf dövründə qeyri-neft sənayesinin şaxələndirilməsi və daha da inkişaf etdirilməsi, aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, rəqəmsal ticarətin inkişafı və xidmət fəaliyyət növlərinin genişləndirilməsi, turizm sahəsinin bərpasının sürətləndirilməsi əsas prioritet istiqamətlər kimi müəyyən olunmuşdur.

# KƏND, MEŞƏ VƏ BALIQÇILIQ TƏSƏRRÜFATLARI



## Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılmış əlavə dəyər və artım tempinin dinamikası




- ✓ **2023-cü ildə kənd təsərrüfatında 6815,6 milyon manatlıq əlavə dəyər yaradılmışdır. 2022-ci ilə nisbətən heyvandarlıq sahəsində məhsul istehsalı 3,2%, bitkiçilik məhsullarının istehsalı isə 2,7% artmışdır.**
- ✓ **Heyvandarlıq sektorunda artım əsasən yumurta (8,4%) və ət (3,1%) məhsulları, bitkiçilikdə isə taxıl məhsullarının (2,8%) istehsalının artımı hesabına əldə olunmuşdur.**

# QEYRİ NEFT-QAZ SƏNAYESİ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Qeyri neft-qaz sənayesində əlavə dəyərin strukturu, mln. manat




- ✓ **2023-cü ildə qeyri neft-qaz sənayesində 7,9% artım əldə olunmuşdur. Artım əsasən qeyri-neft emalı sənayesi, eləcə də elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələri hesabına baş vermişdir.**

# TİKİNTİ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ




- ✓ **2023-cü ildə qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 9,3% artaraq 14031,1 milyon manata çatmışdır.**

# TİCARƏT VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN TƏMİRİ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası




✓ **2023-cü ildə ticarət və nəqliyyat vasitələrinin təmiri sektorunda yaradılan əlavə dəyər 3,5% artaraq 12332,8 milyon manat olmuşdur.**

# NƏQLİYYAT VƏ ANBAR TƏSƏRRÜFATI

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu, %**




**Sərnişin daşınmasının nəqliyyat növləri üzrə strukturu, %**




- ✓ **2023-cü ildə yük daşımaları əvvəlki illə müqayisədə 5,3 faiz artaraq 230,2 milyon tona, sərnişin daşımaları isə 18,7 faiz artaraq 1923,6 milyon nəfərə çatmışdır.**

# TURİSTLƏRİN YERLƏŞDİRİLMƏSİ VƏ İCTİMAİ İAŞƏ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə yaradılmış əlavə dəyər və artım tempinin dinamikası




- ✓ **2023-cü ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində yaradılmış əlavə dəyər əvvəlki ilə nisbətən 21,8 faiz artaraq 2684,5 milyon manat təşkil etmişdir.**
- ✓ **2023-cü ildə Azərbaycan Respublikasına dünyanın 187 ölkəsindən 2085,8 min və ya əvvəlki illə müqayisədə 30,2 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.**

# İNFORMASİYA VƏ RABİTƏ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ




- ✓ **İnformasiya və rabitə texnologiyalarından istifadəyə olan tələbin artması 2023-cü ildə də bu sahədə artımın davamlı olmasını təmin etmişdir.**
- ✓ **Bu sektorda göstərilən xidmətlərin 36,1 faizi mobil telefon rabitəsi sahəsində formalaşmışdır.**